## *And*

Yaylıqları bayraq olan Vətənim!
Anaların pak südünə and olsun!
Bayraqları torpaq olan Vətənim,
Torpağının boz gününə and olsun!

Hər qarış yerinçün candan keçərik,
Qaniçən deyilik, düşmən qanını
Su yerinə şərbət bilib içərik!
Yaylıqları bayraq olan Vətənim!

O ağaran dan yerindən hərəmiz
Əynimizə ağ bir kəfən biçərik.
Anaların göz yaşına and olsun,
Bellərini kədər bükmüş o azman

Babaların ağ başına and olsun? –
Yerdə qalmaz bu al qanın ləkəsi,
Qalsa əgər, tutsun bizi qoy sənin
Verdiyin o duz-çörəyin tikəsi!
Yaylıqları bayraq olan Vətənim!
Sən ağlama, sən ağlasan yanacaq,
Qovrulacaq bax bu canım, bu tənim!

Əlioğlu Ç. And : şeir // Ulduz. – 1991. - № 1. – S. 36.